# Üzümçülüyün əvvəlki şöhrətinin qaytarılması xüsusi diqqət mərkəzindədir



***❐ Bu gün respublikamızda ilk dəfə olaraq Heydər Əliyev Fondunun dəstəyi, Kənd Təsərrüfatı Nazirliyi, Şamaxı Rayon İcra Hakimiyyəti, "Regional İnkişaf" İctimai Birliyi, Dövlət Turizm Agentliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə Şamaxı rayonunun Meysəri kəndində "Şirvan şərabları" MMC-nin ərazisində Üzüm və Şərab Festivalı keçirilir.***

Heydər Əliyev Fondunun yaydığı məlumata görə, festivalın təşkilində məqsəd yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda şərab istehsalı tarixinin geniş ictimaiyyətə çatdırılmasıdır.

Yerli şərab istehsalçıları, müvafiq dövlət qurumlarının nümayəndələri və xarici ekspertlərin iştirak etdikləri festival çərçivəsində ölkədə üzümçülük və şərabçılıq sahəsində mövcud olan problemlər, inkişaf istiqamətləri və yerli şərab məhsullarının xarici bazarlara çıxışı mövzularında "dəyirmi masa" keçirilməsi də nəzərdə tutulub.



Üzüm və Şərab Festivalının keçirilməsi Azərbaycanda bu sahənin inkişafına mühüm önəm verilməsinin daha bir göstəricisidir.

Yeri gəlmişkən, dövlət başçısının 2018-ci il 3 may tarixli sərəncamı ilə təsdiqlənən "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nda qeyd olunur ki, respublika iqtisadiyyatının səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində qeyri-neft sektorunun inkişafının təmin edilməsi ölkənin əsas iqtisadi prioritetlərindəndir. Görülən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda qeyri-neft sektorunun gücləndirilməsi üçün əlverişli şərait yaradılıb, o cümlədən iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə xüsusi əhəmiyyət verilib. Ölkənin əlverişli torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, emal sənayesi müəssisələrinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, regionda geniş ixrac bazarlarının mövcudluğu və böyük ixrac potensialının olması aqrar sahənin daha da təkmilləşdirilməsini zəruri edib.

Aqrar-sənaye kompleksinin ən gəlirli və ən qədim sahələrindən biri də şərabçılıqdır. Şərabçılıq tarixən ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə verib və aparıcı sahələrdən biri olub. Azərbaycan şərabları gözəl, təkrarolunmaz ətrinə və əla keyfiyyətinə görə şöhrət qazanıb. Statistik məlumatlar göstərir ki, keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri sistemində 151 mindən artıq fəhlə və mütəxəssis işləyib, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edilib.

Ölkədə şərabçılığın davamlı inkişafının təmin edilməsi, o cümlədən bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, potensial imkanlardan səmərəli istifadə edilməsi, həmçinin şərab istehsalına və ixracına marağın artırılması məqsədilə "Üzümçülük və şərabçılıq haqqında" Qanuna, habelə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" hazırlanıb.

Azərbaycan Prezidentinin 2011-ci il 15 dekabr tarixli sərəncamı ilə təsdiqlənən "2012–2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda respublikada üzümün və onun emal məhsullarının istehsalının artırılması, ölkə əhalisinin təzə və keyfiyyətli üzümə tələbatının daha dolğun ödənilməsi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması nəzərdə tutulub.

Son illərdə üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi ilə bağlı müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində işlər görülür, kənd təsərrüfatı, o cümlədən üzümçülük müəssisələri ilə tədarük, emal və şərabçılıq müəssisələri arasında kooperasiyanın təkmilləşdirilməsi məsələləri diqqətdə saxlanılır. Məhz elə bunun nəticəsidir ki, 2018-ci ildə Azərbaycanda 1,5 milyon dekalitr şərab məhsulları istehsal edilib. 2017-ci illə müqayisədə istehsal 48,9 faiz artıb. Ötən il Azərbaycandan xaricə 6 milyon 159,9 min dollarlıq 264,85 min dekalitr üzüm şərabı ixrac olunub. Bunun çox böyük hissəsi - 231 min dekalitri Rusiyaya, 14,31 min dekalitri isə Çinə satılıb. Keçən il şərab ixracının həcmi 2017-ci ilin göstəricisi ilə müqayisədə 75,4 faiz yüksək olub.

Rəsmi məlumatlara görə, hazırda ölkədə 16,1 min hektar üzüm bağı var. 2018-ci ildə 167 min ton üzüm, 15,7 min ton təbii üzüm şərabı və 0,6 min ton təzə üzümdən köpüklənən şərab olmaqla, cəmi 16,3 min ton şərab istehsal edilib. Bunun 6,6 min tonu ixrac edilib. Şərab ixracında yerli məhsulların rəqabət üstünlükləri və potensial bazarlarda tələbatın yüksək olmasını nəzərə alaraq ölkədə mövcud olan şərab zavodlarının potensialından tam istifadə olunması növbəti illər üçün qarşıya məqsəd qoyulub.

Bu gün sözügedən sahədə əsas diqqət üzüm genofondunun zənginləşdirilməsi və qorunub saxlanılmasına, aborigen üzüm sortlarının, yabanı üzüm növlərinin öyrənilməsinə, müxtəlif istiqamətli yüksək keyfiyyətli, xəstəlik və zərərvericilərə qarşı davamlı sort və hibridlərin yaradılmasına yönəldilib. Bundan başqa, son illərdə üzümün innovativ becərilmə texnologiyasının işlənib hazırlanması, beynəlxalq standartlara uyğun şərabların, şərab distillyatlarının, digər alkoqollu və alkoqolsuz üzüm məhsullarının istehsal texnologiyalarının tədqiq edilməsinə də xüsusi əhəmiyyət verilib.

Hazırda üzümçülükdə məhsuldarlığın, məhsul istehsalının artırılması, istehsal xərclərinin minimuma endirilməsi, innovativ və institusional metodlardan geniş istifadə olunması məqsədilə kooperativ fəaliyyətinə xüsusi önəm verilir. Kooperativlərin təsis olunması, eyni zamanda, fermerlərin üzləşdiyi çətinliklərin asanlıqla həllinə, onların işini daha səmərəli qurmasına əlverişli şərait yaradır.



Avropa İttifaqının maliyyələşdirdiyi Azərbaycan Respublikası Kənd Yerləri və Regionların İnkişafına Dəstək (KYRİD) proqramının icrasına texniki yardım layihəsi çərçivəsində Şamaxı rayonunda "Mələk Üzümçülük İstehsal Kooperativi"nin yaradılması da məhz bunun bariz ifadəsidir.

Kooperativin sədri fermer Qurbanəli Babaşov bizimlə telefon söhbətində Şamaxının böyük üzümçülük ənənələrinə malik olduğunu, ötən əsrin 80-ci illərində Azərbaycanda ən iri üzümçülük bölgəsi kimi tanındığını diqqətə çatdırdı. Vurğuladı ki, o vaxt rayonda 27 min hektardan çox üzüm bağı olub. Hər il orta hesabla 250-260 min ton üzüm istehsal edilib. Azərbaycanda üzümçülüyün yeni inkişaf mərhələsinin yaşandığı indiki vaxtda isə təsərrüfatın bu sahəsinin əvvəlki şöhrətinin qaytarılması ən ümdə vəzifələrdən biridir.

Qurbanəli Babaşov vurğuladı ki, "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icrası çərçivəsində rayonda xeyli iş görülüb və hazırda üzüm bağlarının sahəsi 1793,6 hektara çatdırılıb. Bağların 1612 hektarı məhsuldardır. 185 hektar cavan üzüm bağı intensiv üsulla əkilib.

Üzümçülüyün böyük iqtisadi səmərəsini xatırladan fermer Şamaxı iqlimində 100 hektar məhsuldar bağdan hər il orta hesabla 600 min manat gəlir götürməyin mümkünlüyünü, bu gəlirin, məsələn, bir hektar taxıl sahəsindən götürülən gəlirlə müqayisədə 20 dəfəyədək çox olduğunu qeyd etdi.

Şamaxıda üzümçülüyün və şərabçılığın inkişafı ilə əlaqədar böyük layihələr hazırlanıb, müasir texnologiya ilə yeni, məhsuldar bağların salınması, ixracyönümlü məhsulların istehsalı istiqamətində tədbirlər görülüb. Artıq rayonda yeni tingçilik təsərrüfatı yaradılıb. Burada 120 mindən çox ting əkilib.

***Vaqif BAYRAMOV,***
***Xalq qəzeti"***